Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 2009-cu il "13" yanvar  tarixli İ-05 nömrəli əmri ilə təsdiq edilmişdir.

# Büdcə Təşkilatları üçün 22 № li Milli Mühasibat Uçotu Standartı

## *"Ümumi Dövlət Sektoru haqqında Maliyyə Məlumatının Açıqlanması"*



PDF created with pdfFactory trial version www.pdffactory.com

## Ümumi müddəalar

1. Bu Standart «Mühasibat Uçotu haqqında» Azərbaycan Respublikası Qanununa uyğun olaraq hazırlanmış və "Ümumi Dövlət Sektoru haqqında Maliyyə Məlumatının Açıqlanması" adlı İctimai Sektor üçün 22 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartına əsaslanmışdır.

2. Bu standart aşağıdakı hallarda Azərbaycan Respublikasının Hökuməti, o cümlədən, mərkəzi, regional/əyalət və yerli hökumətlər üçün açıqlama tələblərini müəyyən edir;

   (a) qeyd edilən qurumlar özlərinin birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarında ümumi dövlət sektoru (ÜDS) haqqında məlumat təqdim etməyə qərar verdikdə; və

   (b) müvafiq birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatları mühasibat uçotunun hesablama metodu əsadına hazırlandıqda.

3. Bu standartın məqsədi hökumətin ümumi dövlət sektoru barədə açıqladığı müvafiq məlumatların maliyyə hesabatlarının şəffaflığının artıra bilməsindən və hökumətin kommersiya və qeyri-kommersiya fəaliyyəti, eləcə də, maliyyə hesabatları ilə statistik baza arasında əlaqələrin daha yaxşı dərk edilə bilməsindən ibarətdir.

4. Azərbaycan Respublikasının Hökuməti birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını mühasibat uçotunun hesablama metodu əsasında hazırladıqda və təqdim etdikdə, habelə, ümumi dövlət sektoruna dair maliyyə məlumatlarının açıqlanmasına dair qərar qəbul etdikdə hazırki standartın tələblərini nəzərə almalıdır.

5. Bu standarta uyğun olaraq hazırlanan maliyyə hesabatları yalnız nəzarət edilən müəssisələri konsolidasiya edir. Maliyyə hesabatlarının statistik bazasında bu cür məhdidiyyətlər tətbiq edilmir. Maliyyə hesabatlarının statistik bazasına uyğun olaraq hökumətin bütün səviyyələri üzrə ümumi dövlət sektoru birləşdirlir və bəzi hallarda statistik baza əsasında hesabat təqdim edən ümumi dövlət sektoru Azərbaycan Hökumətinin Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartına əsasən hazırladığı birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarına daxil edilməyən strukturları əhatə edəcəkdir. Bu standart hökumətin birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını hissələrə ayırır və ümumi dövlət sektorunun tərkib hissəsi kimi hökumətin maliyyə hesabatları çərçivəsində konsolidasiya edilməyən qurumlara dair təqdimatların verilməsini istisna edir.

6. Fərdi nəzarət edilən müəssisələr üçün deyil, yalnız hökumət üçün ümumi dövlət sektoru üzrə əhəmiyyətli təqdimat açıqlana bilər. Ona görə də, bu standart yalnız Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartına uyğun olaraq mühasibat uçotunun hesablama metodu əsasında birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatları hazırlayan hökumət üçün tətbiq ediməsi nəzərdə tutulan tələblər müəyyən edir. Bu standartın məqsədi baxımından Hökumət termini mərkəzi, regional/əyalət və yerli hökumətləri əhatə edir.

7. Bu standart fərdi təşkilatlara şamil edilmir.

## Seqment hesabatları

8. "Seqment hesabatları" adlı Büdcə Təşkilatları üçün 18 №-li Milli Mühasibat Uçotu Standartının tələbləri hazırki standart çərçivəsində birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatları hazırlanan zaman tətbiq oluna bilər. Ümumi dövlət sektoruna dair məlumatın açıqlanması İctimai Sektor üçün 18 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartına uyğun olaraq seqmentlər üzrə açıqlamaların verilməsi ehtiyacını istisna etmir. Ümumi dövlət sektoruna dair məlumat, özü-özlüyündə, xidmətin göstərilməsi üzrə əsas məqsədlərin əldə edilməsi istiqamətində (xüsusilə də, bu məqsədlər ümumi dövlət sektoruna daxil olmayan müəssisə tərəfindən əldə edildikdə) müəssisənin keçmiş fəaliyyətinin qiymətləndirilməsi baxımından istifadəçilər üçün kifayət qədər təfsilatlı məlumatlar təqdim etməyəcəkdir. Ümumi dövlət sektoru bütövlükdə hökumətin bir



PDF created with pdfFactory trial version www.pdffactory.com

hissəsi olduğu üçün hökumət, birləşdirilmiş (konsolidasiya edilmiş) maliyyə hesabatları baxımından seqment məlumatları təqdim etmədikdə əhəmiyyətli məlumatlar diqqətdən yayına bilər. Bu standart Büdcə Təşkilatları üçün 18 №-li Milli Mühasibat Uçotu Standartına uyğun olaraq açıqlanan məlumatlar ilə yanaşı (əgər açıqlanmışdırsa) ümumi dövlət sektoruna dair məlumatların da təqdim edilməsini tələb edir.

## Maliyyə hesabatlarının statistik bazası

9. Maliyyə hesabatlarında ümumi dövlət sektoruna dair müvafiq məlumatın açıqlanması sözügedən hesabatların istifadəçilərinin qərar qəbulu və hesabatlılıq potensialını dəstəkləyir və artırır. Ümumi dövlət sektoruna dair məlumatın açıqlanması, həmçinin, maliyyə hesabatlarının şəffaflığını artırır və aşağıdakı məqamların daha yaxşı başa düşülməsində maliyyə hesabatlarının istifadəçilərinə kömək edəcəkdir:

   (a) Xidmətin göstərilməsi ilə bağlı ümumi dövlət sektorunun fəaliyyətinin və sözügedən xidmətlərin göstərilməsi üzrə hökumətin maliyyə vəziyyətinin dəstəklənməsi istiqamətində ayrılan resurslar;

   (b) Ümumi dövlət sektoru ilə korporativ sektorlar arasında münasibətlər və onların hər birinin ümumi maliyyə fəaliyyətinə təsiri.

10. Azərbaycan Respublikasının hökumətinin maliyyə hesabatları maliyyə hesabatlarının statistik bazasına uyğun olaraq hazırlandıqda və geniş həcmdə nəşr edildikdə, hazırki standarta əsasən maliyyə hesabatlarında ümumi dövlət sektoruna dair məlumatların açıqlanması Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartı çərçivəsində hazırlanan maliyyə hesabatları ilə maliyyə hesabatlarının statistik bazası çərçivəsində hazırlanan maliyyə hesabatları arasında əlaqə yaradır. "Maliyyə hesabatlarında büdcə məlumatlarının açıqlanması" adlı Büdcə Təşkilatları üçün 24 №-li Milli Mühasibat Uçotu Standartı büdcə üçün qəbul edilən metod əsasında büdcədə nəzərdə tutulan və faktiki məbləğlərin müqayisəsinin maliyyə hesabatlarına daxil edilməsini tələb edir. Hökumət büdcələri ümumu hökumət üçün deyil, daha çox, ümumi dövlət sektoru üçün hazırlandıqda hazırki standarta uyğun olaraq açıqlanan ümumu dövlət sektoru üzrə maliyyə məlumatları Büdcə Təşkilatları üçün 24 №-li Milli Mühasibat Uçotu Standartının tələb etdiyi müqayisələr baxımından məqsədəuyğun olacaqdır.

## Uçot siyasətləri

11. "Uçot siyasəti, uçot qiymətlərində dəyişikliklər və səhvlər" adlı Büdcə Təşkilatları üçün 3 №-li Milli Mühasibat Uçotu Standartı maliyyə hesabatlarında bir sıra keyfiyyət meyarlarına, o cümlədən, aydın, münasib və müqayisə oluna bilən məlumatların təqdimatının təmin edilməsi məqsədilə müvafiq uçot siyasətlərinin hazırlanmasını tələb edir. Maliyyə hesabatlarında əks olunan məlumatların keyfiyyət meyarlarına və müvafiq auditin tələblərinə uyğun gələn ümumi dövlət sektoruna dair məlumatların toplanılması və təqdim edilməsi əksər hüquq müstəvilərində maliyyə hesabatlarını hazırlayan şəxslərin və auditorların iş yükünü kifayət qədər artıra və hesabatların özünün daha da mürəkkəb edə bilər. Bu baxımdan, bu standart ümumi dövlət sektoruna dair məlumatın açıqlanmasına imkan versə də bunu tələb etmir. Maliyyə hesabatlarında ümumi dövlət sektoruna dair məlumatın açıqlanıb-açıqlanmamasını Azərbaycan Hökuməti müəyyən edir.

12. Maliyyə hesabatlarında ümumi dövlət sektoruna dair məlumatlar açıqlandıqda bu standart sözügedən açıqlamaların hazırki standartın maddələrinə uyğun gəlməsini tələb edir. Bu, maliyyə hesabatlarında ümumi dövlət sektorunun müvafiq qaydada təmsil olunmasını və ümumi dövlət sektoruna dair açıqlamaların maliyyə məlumatlarının keyfiyyət meyarlarına uyğun gəlməsini təmin edəcəkdir.

## Əsas anlayışlar

13. Bu standartda istifadə edilmiş əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:



PDF created with pdfFactory trial version www.pdffactory.com

***Ümumi Dövlət Sektoru*** maliyyə hesabatlarının statistik bazasında müəyyən edilən ümumi hökumətin bütün təşkilati strukturlarını əhatə edir.

***Dövlət Maliyyə Korporasiyaları Sektoru*** müvafiq hökumət tərəfindən nəzarət edilən və əsas etibarilə, maliyyə vasitəçiliyi və bazar üçün maliyyə xidmətləri göstərən maliyyə və yarım-maliyyə korporasiyalarından, eləcə də, qeyri-kommersiya institutlarından ibarətdir. Sözügedən sektora, həmçinin, hökumət tərəfindən nəzarət edilən banklar, o cümlədən, mərkəzi banklar və kommersiya prinsipləri əsasında fəaliyyət göstərən digər dövlət maliyyə institutları daxildir.

***Dövlət Qeyri-Maliyyə Korporasiyaları Sektoru*** müvafiq hökumət tərəfindən nəzarət edilən və bazar üçün məhsullar və ya qeyri-maliyyə xidmətləri təqdim edən qeyri-maliyyə korporasiyalarından, yarım-korporasiyalardan və qeyri-kommersiya institutlarından ibarətdir. Sözügedən sektora, həmçinin, dövlətə məxsus kommunal müəssisələr, eləcə də, məhsul və xidmət ticarəti ilə məşğul olan digər dövlət təsisatları daxildir.

## Uçot siyasətləri

14. Ümumi dövlət sektoruna dair maliyyə məlumatı hökumətin birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi məqsədilə qəbul edilən uçot siyasətlərinə uyğun olaraq açıqlanmalıdır (standartın 15 və 16-cı maddələrinin tələbləri istisna olmaqla).

15. Ümumi dövlət sektoruna dair maliyyə məlumatı təqdim edən zaman, hökumət Dövlət Maliyyə Korporasiyaları Sektoru və Dövlət Qeyri-Maliyyə Korporasiyaları Sektoru müəssisələri üçün Büdcə Təşkilatları üçün 6 №-li Milli Mühasibat Uçotu Standartının tələblərini tətbiq etməməlidir.

16. Ümumi dövlət sektoru özünün Dövlət Maliyyə Korporasiyaları Sektorunda və Dövlət Qeyri-Maliyyə Korporasiyaları Sektorunda olan investisiyalarını aktiv kimi tanımalı və sözügedən aktivləri investisiya yatırılan müəssisənin xalis aktivlərinin balans dəyəri ilə uçota almalıdır.

## Açıqlamalar

17. Ümumi dövlət sektoru üzrə təqdim edilən açıqlamalar, ən azından, aşağıdakıları əhatə etməlidir:

    (a) Digər sektorlar üzrə investisiyaları ayrıca göstərməklə əsas siniflər üzrə aktivlər;

    (b) Əsas siniflər üzrə öhdəliklər;

    (c) Xalis aktiv/kapital;

    (d) Yenidən qiymətləndirmə üzrə ümumi artımlar və azalmalar, eləcə də, birbaşa olaraq xalis aktivlərdə/kapitalda tanınan digər gəlir və xərc maddələri;

    (e) Əsas siniflər üzrə gəlirlər;

    (f) Əsas siniflər üzrə xərclər;

    (g) Mənfəət və ya zərər;

    (h) Əsas sinif üzrə əməliyyat fəaliyyəti ilə bağlı pul vəsaitləri hərəkətləri;

    (i) İnvestisiya fəaliyyəti ilə bağlı pul vəsaitləri hərəkətləri;

    (j) Maliyyə fəaliyyəti ilə bağlı pul vəsaitləri hərəkətləri.

    Ümumi dövlət sektoru üzrə açıqlamaların təqdim edilməsi üsulu hökumətin Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanan maliyyə hesabatlarından daha geniş olmamalıdır.

18. Hökumət, həmçinin, təqdim edilən məlumatın xarakterinin istifadəçilər tərəfindən başa düşülməsi üçün zəruri olan digər əlavə açıqlamaları da verəcəkdir.



PDF created with pdfFactory trial version www.pdffactory.com

19. Ümumi dövlət sektoru üzrə açıqlamalar ümumi dövlət sektoruna daxil olan əhəmiyyətli nəzarət edilən müəssisələri və bu müəssisələr üçün əvvəlki dövrlər üzrə istənilən dəyişiklikləri və əvvəllər ümumi dövlət sektoruna daxil edilən müəssisənin müvafiq sektordan çıxarılması səbəblərini əhatə etməlidir.

## Birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatları ilə uzlaşdırma

20. Ümumi dövlət sektorunun açıqlamaları hökumətin birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatları ilə uzlaşdırılmalı və bu zaman, müvafiq maliyyə hesabatlarında hər bir ekvivalent maddə üzrə uzlaşdırlıan məbləğ ayrıca göstərilməlidir. .

21. Bu standart birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarında verilən ümumi dövlət sektoru üzrə açıqlamaların maliyyə hesabatlarının statistik bazası çərçivəsində təqdim edilən ümumi dövlət sektoru üzrə açıqlamalar ilə üzlaşdırılmasını tələb etmir.

## Qüvvəyə minmə tarixi

22. Hazırkı Standart Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin müəyyən etdiyi tarixdən sonra tətbiq edilir.

23. Əgər Azərbaycan Respublikasının Hökuməti Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotunun Standartında qeyd edildiyi kimi maliyyə hesabatı məqsədilə mühasibat uçotunun hesablama metodunu qəbul edərsə və müvafiq hüquqi qüvvəyə minmə tarixindən sonra özünün birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarında ümumi dövlət sektoru üzrə məlumatların açıqlanmasına dair qərar qəbul verərsə, hazırki standart hökumətin qəbul tarixi və ondan sonrakı dövr üçün illik birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatına tətbiq ediləcəkdir. Büdcə Təşkilatları üçün 1 -li Milli Mühasibat Uçotu Standartının tələblərinə uyğun olaraq, hazırki standartın ilk dəfə tətbiq edildiyi hesabat dövrü üçün müqayisəli məlumatların açıqlanması tələb olunmur.



PDF created with pdfFactory trial version www.pdffactory.com